# Akademik Zemfira Səfərovanın elmi yaradıcılığı Azərbaycan musiqişünaslığı kontekstində

**Ülkər Talıbzadə**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu. Azərbaycan.
E-mail: ulkar_talibzadeh@yahoo.com

**Annotasiya.** Məqalədə görkəmli musiqişünas-akademik Zemfira Səfərovanın elmi yaradıcılığı Azərbaycan musiqişünaslığı müstəvisində tədqiq edilir. Z.Səfərovanın musiqişünaslıq fəaliyyətindən söz açarkən onun bir neçə əsas istiqamətini müəyyənləşdirmək olar: Üzeyirşünaslıq, mənbəşünaslıq, musiqi tarixi, musiqi nəzəriyyəsi. Z.Səfərova Azərbaycanda və dünyanın bir çox ölkələrində müxtəlif dillərdə çıxan kitab və məqalələrində Ü.Hacıbəylinin musiqi və elmi irsini tədqiq edərək, Üzeyirşünaslığı əsaslı şəkildə zənginləşdirib. Azərbaycan musiqi elminin tarixi ilə bağlı apardığı tədqiqatlarla Z.Səfərova milli musiqişünaslığımızda mənbəşünaslığın əsasını qoyub, musiqişünas alimlərimizin əsərlərini mətnşünaslıq prinsipləri əsasında ilk dəfə olaraq nəşr etdirib. "Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)" fundamental monoqrafiyası ilə Z.Səfərova Azərbaycanda ilk dəfə olaraq 7-8 əsrlik musiqi elminin inkişaf yolunu tədqiq edib. Alim unikal mənbələrin təhlili nəticəsində əldə etdiyi musiqi-nəzəri ümumiləşdirmələrə, elmi faktlara əsaslanaraq, Yaxın və Orta Şərq musiqi tarixinin, musiqi-estetik, fəlsəfi fikrinin ayrılmaz hissəsi olan Azərbaycan musiqi elminin bütöv bir mərhələsinin tarixini yaradıb.
**Açar sözlər:** Azərbaycan musiqişünaslığı, S.Urməvi, Ə.Marağai, F.Şirvani, M.M.Nəvvab, Ü.Hacıbəyli, Q.Qarayev

**Məqalə tarixçəsi:** göndərilib – 21.07.2022; qəbul edilib – 28.07.2022

# Scientific creativity of Academician Zemfira Safarova in the context of Azerbaijani musicology

**Ulkar Talibzade**
Doctor of Philosophy in Art studies
Institute of Architecture and Art of ANAS. Azerbaijan.
E-mail: ulkar_talibzadeh@yahoo.com

**Abstract.** The article explores academic works of renowned musicologist and academician Zemfira Safarova in the context of Azerbaijani musicology. One can distinguish the following key directions in Safarova's work: exploring the legacy of Uzeyir Hajibeyli, source study, and history and theory of music. In her books and articles published in Azerbaijan and a number of other countries, Z.Safarova looks at musical and academic legacy of Uzeyir Hajibeyli, thus significantly enriching the study of his work. Her explorations of the history of Azerbaijani musicology laid the foundation of the source study in the national musical science. In her fundamental monograph "Musical science of Azerbaijan (XIII-XX centuries)" the author for the first time in Azerbaijan examines the evolution of the national musical science from the XIII century to the present (XX century). Based on musical and theoretical generalizations obtained through the analysis of unique sources, Z.Safarova created history of a whole period in Azerbaijani musicology, which in its turn is an

integral part of the history of music, musical, aesthetical and philosophic thought of the Middle East.

**Keywords:** musicology of Azerbaijan, S.Urmevi, A.Maraghai, A.Shirvani, M.M.Navvab, U.Hajibeyli, G.Garayev

**Article history:** received − 21.07.2022; accepted − 28.07.2022

## Giriş / *Introduction*

Əsası dahi Üzeyir Hacıbəyli tərəfindən qoyulmuş milli musiqişünaslığın ən qabaqcıl zəngin zəminində yetişən Azərbaycanın görkəmli musiqşünas-alimi akademik Z.Səfərovanın elmi yaradıcılığı son dərəcə əhatəli və çoxsahəlidir. Azərbaycan musiqişünaslığının əsas istiqamətləri və problemləri onun tədqiqatlarında öz ifadəsini tapıb. Z.Səfərovanın musiqişünaslıq fəaliyyətindən söz açarkən onun bir neçə əsas istiqamətini müəyyənləşdirmək olar. Üzeyirşünaslıq, mənbəşünaslıq, musiqi tarixi, musiqi nəzəriyyəsi alimin yaradıcılıq fəaliyyətinin mövzu və problematika çevrəsinin əsasını təşkil edir. Alim elmi tədqiqatlarını musiqişünaslıq elminin müxtəlif yönlərinin, vasitələrinin, sahələrinin üzvi birləşməsi, üzvi şəkildə əlaqələndirilməsi zəminində aparır. 50-dən çox kitab, 300-dən artıq elmi əsərin müəllifi olan Z.Səfərovanın yaradıcılığının tədqiqat dairəsi həm mövzu, həm də zaman etibarilə olduqca genişdir.

## Əsas hissə / *Main Part*

*Üzeyirşünaslıq.* Z.Səfərovanın yaradıcılığının mühüm hissəsi ölməz sənətkar Üzeyir Hacıbəyliyə həsr edilib. Azərbaycanda və dünyanın bir çox ölkələrində türk, ərəb, fars, rus, ingilis, fransız, macar, rumın, polyak və digər dillərdə nəşr edilən janr və üslub baxımından müxtəlif kitab və məqalələrində Z.Səfərova Ü.Hacıbəylinin musiqi və elmi irsini tədqiq edib, Üzeyirşünaslığı əsaslı şəkildə zənginləşdirib. O, Azərbaycanda və xarici ölkələrdə keçirilən nüfüzlu beynəlxalq konfrans və simpoziumlarda bəstəkarı fəal təbliğ edib.

Alimin "Üzeyir Hacıbəyovun musiqi-estetik görüşləri" [6] ("Музыкально-эстетические взгляды Узеира Гаджибекова") adlı ilk tədqiqatında Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq bəstəkarın musiqi və elmi-publisistik irsinin nəzəri və estetik əsasları tədqiq edilib, musiqi-estetik konsepsiyasının mahiyyəti açıqlanıb. Z.Səfərova kitabında o dövrdə Azərbaycan musiqişünaslığında çox az tədqiq olunan musiqi sənətinin estetik problemlərinin tədqiqinə müraciət edib. Akademik Qara Qarayev kitaba yazdığı ön sözdə musiqişünasın çox çətin bir problemə, Azərbaycan musiqisinin estetik problemlərinə üz tutmasına böyük əhəmiyyət vermiş, bu problemin ilk olaraq məhz Üzeyir Hacıbəylinin musiqi və nəzəri irsində çözülməsini ən düzgün qərar kimi dəyərləndirmişdi [1, s.29]. Alimin elmi rəhbəri, görkəmli rus musiqişünası İ.Y.Rıjkin əsərə verdiyi rəydə Z.Səfərovanın "Üzeyir Hacıbəyovun musiqi-estetik konsepsiyası" tədqiqatının bu dahi musiqiçi və ictimai xadimin estetik görüşlərinin araşdırılmasına həsr edilən, özündə bir sıra doğru və incə məqamları ehtiva edən ilk və olduqca ciddi bir əsər olduğunu bildirmişdi [1, s.48].

1985-ci ildə alim bəstəkarın 100 illiyinə yeni "Üzeyir Hacıbəyov yaradıcılığında nəzəri və estetik problemlər" [5] monoqrafiyasını nəşr etdirir. Ü.Hacıbəylinin estetik konsepsiyasını, yaradıcı təfəkkürünü, dahi şəxsiyyətini açıqlayan bu fundamental əsərdə Z.Səfərova bəstəkarın xəlqilik, beynəlmiləlçilik, millilik, ənənə və novatorluq baxışlarını, səs sistemi, lad, melodiya, metroritm, çoxsəslilik kimi nəzəri problemləri onun həm musiqi, həm bədii, həm də nəzəri-tənqidi yaradıcılığında təhlil və tədqiq edib.

Heç də təsadüfi deyil ki, müxtəlif dillərdə nəşr edilən kitab və məqaləıəri, coxsaylı məruzələri, televiziya və radio verilişlərindəki çıxışları ilə Üzeyir bəy sənətini nəinki Azərbaycan-

da, dünyanın bir çox ölkələrində təbliğ etdiyinə və Üzeyirşünaslıq sahəsində apardığı mühüm elmi-tədqiqat işlərinə görə, Z.Səfərova 2015-ci ildə AMEA-nın rəhbərliyi tərəfindən Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq Üzeyir Hacıbəyli adına yüksək mükafata layiq görülüb.

*Mənbəşünaslıq.* Azərbaycan musiqi elminin tarixi ilə bağlı apardığı tədqiqatlarla Z.Səfərova milli musiqişünaslığımızda mənbəşünaslığın əsasını qoyub, musiqi xadimlərimizin, musiqişünaslarımızın əsərlərini mətnşünaslıq prinsipləri əsasında ilk dəfə olaraq nəşr etdirib, Azərbaycan musiqişünaslığında orta əsr risalələrinin tədqiqi və təhlili metodologiyasına öz töhfələrini verib.

Bu sahədə Z.Səfərovanın ilk layihəsi XIX əsr alimi Mir Möhsün Nəvvabın “Vüzuhül ərqam” risaləsidir. Alim risalənin mətnini ilk dəfə olaraq müasir əlifbaya transfoneliterasiya edib, nəşrə hazırlayıb və 1989-cu ildə Ön söz və elmi şərhlər, lüğət və əsərin orijinalının foto surətini verərək “Elm” nəşriyyatında çap etdirib [2]. Ön sözdə Z.Səfərova alim, şair, rəssam və musiqişünas, ensiklopedik biliyə malik olan M.M.Nəvvabın qısa, lakonik və hərtərəfli portretini yaradıb. Burada Nəvvabın yaşadığı dövr, mühit, onun həyatı, maraq dairəsi, çoxşaxəli fəaliyyəti və yaradıcılığı müfəssəl qələmə alınıb. Z.Səfərova bu tədqiqatda ilk dəfə olaraq risalədə olan cədvəllərdən birinin not açımını (rasşifrofkasını) verib. Cədvəlləri təcrübədə işlətmək, onlardan birini səsləndirmək məqsədilə tədqiqatçı görkəmli tarzən mərhum Bəhram Mansurova müraciət edib, B.Mansurov müəyyən məşqlərdən sonra unudulmuş muğam parçalarını bərpa edərək, cədvəldən bir hissəni səsləndirib. O, cədvəldə verilən yolla – Çahargah, Novruzi-tərkib, Hicaz, Azərbaycan, Şah Xətai (*Z.Səfərova Bəhram Mansurov tərəfindən çağdaş dövrümüzdə unudulmuş və ifa edilməyən Azərbaycan və Şah Xətai muğamlarının səsləndirilməsi faktını açıqlayır*), Dilkəş – muğam nümunəsini Səmərqənddə keçirilən II Beynəlxalq musiqişünaslıq simpoziumunda Z.Səfərovanın “Mir Möhsün Nəvvabın “Vüzuhül-ərqam” risaləsi” məruzəsinə illüstrasiya kimi ifa edib.

Musiqişünasın 1995-ci ildə nəşr etdirdiyi “Səfiəddin Urməvi” kitabında XIII əsr Azərbaycan alimi S.Urməvinin “Kitabül-Ədvar” və “Şərəfiyyə” risalələri ilk dəfə olaraq ərəbcədən tərcümədə (şərqşünas-alim T.Həsənovun tərcüməsində) tədqiq, təhlil edilib, ümumiləşdirilib, nəzəri nəticələr çıxarılıb və alimin yaşadığı dövrün elmi mənzərəsi yaradılıb. S.Urməvi kitabın səhifələrində Yaxın və Orta Şərqdə “Sistemçilik məktəbi”nin banisi, dahi alim və filosof kimi təsvir edilib. Z.Səfərova böyük alimin səs sisteminin nizamlanmasına gətirdiyi yenilikləri, onun dissonantlıq nəzəriyyəsini, “iqa” ritm nəzəriyyəsini, musiqidə nisbilik, ahənglilik, harmoniya, uyumluluq konsepsiyasını və digər mühüm nəzəri məqamları ardıcıl tədqiq edib və nəticədə Urməvi yaradıcılığının nəinki Azərbaycan, habelə, bütün Orta və Yaxın Şərq musiqi nəzəriyyəsi və mədəniyyətinin inkişafında mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb: “Musiqidə harmoniya, uyumluluq carçısı olan Səfiəddin Urməvinin humanist estetikası XIII əsrdə bütün Yaxın və Orta Şərqin musiqi sənətinin inkişafında önəmli rol oynadı” [4, 150].

Z.Səfərova XIV-XV əsrlərdə yaşayıb-yaratmış Azərbaycan musiqişünas-alimi, bəstəkar, mahir ifaçı, istedadlı xəttat, bədii söz ustası Əbdülqadir Marağaiyə həsr edilən kitabında (1997-ci il) alimin həyatı, dövrü, elmə gətirdiyi yeniliklər barədə ətraflı məlumat verib, musiqi və şeirlərini təhlil edib. O, araşdırmasında Marağainin Urməvidən sonra musiqi elminə gətirdiyi yenilikləri ardıcıl olaraq sərgiləyib. Belə ki, alim tədqiqat nəticəsində Ə.Marağainin musiqi elminə gətirdiyi mühüm yenilik olaraq 12 klassik muğamdan törəyən və daha sonrakı dövrə aid olan 24 şöbənin quruluşu və səs qatarının verilməsi faktını önə çəkib və göstərib ki, Marağai ilk dəfə olaraq “Came əl-əlhan” və “Fəvaid əşərə” risalələrində 24 şöbəni xüsusi bir qrup şəklində ayırıb təhlil etmişdir.

Tədqiqatçı Azərbaycan musiqi tarixində ilk dəfə olaraq Türkiyədən böyük alim və musiqiçinin əsərlərini disklərdə ölkəmizə gətirib, səsləndirib və monoqrafiyada bu əsərlərdən beşinin – “Rast Kari Möhtəşəm”, “Rast Nakış bəstə”, “Rast Kari Haydarnamə”, “Mahur Kari Mürəssə”, “Segah Kari şeş avaz” – notlarını verib. O, Ə.Marağainin musiqi əsərlərini öz həmyerlilərinə təqdim edərək, onların mətn və melodiyalarını təhlil edib. Müəllif təhlil əsnasında

mühüm nəzəri problem olan musiqi ilə mətnin qarşılıqlı əlaqəsinə toxunub. Professor Məcnun Kərimovun rəhbərlik etdiyi S.Urməvi adına "Qədim musiqi alətləri" ansamblı məhz bu not yazılarından istifadə edərək, "Rast Naxış Bəstə" və "Rast Kar-i Haydarnamə" əsərlərini öz repertuarlarına daxil edib. Hər iki əsər ansamblın vizit kartı olaraq indi də ifa edilir.

Z.Səfərovanın tədqiqata cəlb etdiyi daha bir tarixi məxəz XV əsrdə Şərqdə böyük nüfuza malik olan görkəmli alim Fətullah Şirvaninin "Musiqi məcəlləsi" risaləsidir. 2006-cı ildə Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun "Muğam-İrs Layihəsi" çərçivəsində orta əsr alimləri Səfiəddin Urməvinin (XIII əsr) və Fətullah Şirvaninin (XV əsr) musiqiyə dair risalələri nəfis tərtibatda "Şərq-Qərb" nəşriyyatında nəşr edildi. F.Şirvaninin "Musiqi məcəlləsi" ("Məcəllə fil-musiqa") risaləsi ilk dəfə olaraq Azərbaycan dilinə tərcümə edilmiş, əsərə geniş və əhatəli elmi şərhlər verilmişdi. "Musiqi məcəlləsi" risaləsini ərəb dilindən tərcümə edən AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun alimi Əmirşah Əmirəhmədov, ixtisas redaktoru, ön söz və şərhlərin müəllifi akademik Zemfira Səfərova idi. Kitabda Z.Səfərova görkəmli Azərbaycan ensiklopediyaçı alimi Fətullah Əbdüləziz İbrahim əş-Şəbərani əş-Şamaxi əş-Şirvaninin həyat və yaradıcılıq yolunu araşdırır, F.Şirvani kimi görkəmli musiqişünas alimin yetişdiyi dövrü, mühiti səciyyələndirir, onun "Musiqi məcəlləsi" risaləsini mətnşünaslıq prinsiplərinə uyğun olaraq təhlil edir. Z.Səfərova Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq F.Şirvaninin musiqiylə bağlı olan yeganə əsəri – "Musiqi məcəlləsi" əsəri haqqında məlumatı, əsərin yaranması ilə bağlı önəmli tarixi faktları oxucuların diqqətinə təqdim edib.

Z.Səfərovanın mənbəşünaslıq sahəsində apardığı qızğın və məqsədyönlü elmi axtarışları, gərgin tədqiqatları "Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)" [3] kimi fundamental bir əsərin yaranması ilə zirvəyə çatıb. Bu monoqrafiyası ilə Z.Səfərova Azərbaycanda ilk dəfə olaraq 7-8 əsrlik musiqi elminin inkişaf yolunu tədqiq edib, unikal mənbələrin təhlili nəticəsində əldə etdiyi musiqi-nəzəri ümumiləşdirmələrə, elmi faktlara əsaslanaraq, Yaxın və Orta Şərq musiqi tarixinin, musiqi-estetik, fəlsəfi fikrinin ayrılmaz hissəsi olan Azərbaycan musiqi elminin tarixini yaradıb. Monoqrafiyada təhlil olunan orta əsr risalələrinin oxucular tərəfindən qavranılmasını asanlaşdırmaq məqsədilə o, S.Urməvinin, Ə.Marağainin, M.M.Nəvvabın risalələrində işlədilən qədim musiqi terminlərinin izahlı lüğətini də tərtib və nəşr etdirib.

Z.Səfərova Azərbaycan mədəniyyətini, musiqi tarixini, musiqi elmini digər Yaxın və Orta Şərq xalqlarının, ölkələrin tarixi, mədəniyyəti, elmi ilə sıx əlaqədə tədqiq edib. Eyni zamanda Z.Səfərova Azərbaycanın daim Qərb ölkələri ilə təmasda olduğunu və bu prosesin gündən-günə fəallaşdığını əsas tutaraq, musiqişünaslıq tariximizi ümumdünya mədəniyyəti və elmi kontekstində araşdırıb, dünya musiqi elminə gətirdiyi yenilikləri incələyib.

"Azərbaycanın musiqi elmi" əsərinin bir çox dəyərli, qiymətli xüsusiyyətlərindən biri kimi, onun çoxaspektliliyini xüsusi vurğulamaq lazımdır. Burada elmi-tədqiqat prosesinin musiqi-nəzəri, estetik, tarixi, fəlsəfi, təcrübi profilləri harmonik şəkildə bir-birilə əlaqəyə girib, bir-birini tamamlayıb və bunun nəticəsində təkcə Azərbaycan musiqi elmini deyil, həm də Azərbaycanın musiqi tarixini əks etdirən ilk əsaslı monoqrafiya ərsəyə gəlib. Monoqrafiyada sırf elmi-nəzəri problemlərlə yanaşı, maraqlı və zəngin faktiki materiala – cədvəllər, dairələr, sxemlər – onların açımı, izahı və təhlilinə xüsusi yer ayrılıb.

Z.Səfərova tədqiqatında ilk dəfə olaraq orta əsrlərə məxsus musiqi nümunələrini oxuculara təqdim edib. O, əsərin birinci hissəsində S.Urməvinin özünün yaratdığı "əbcəd" üsulu ilə nota saldığı dörd melodiyasının Qərb və Şərq alimlərinə məxsus açmalarını verib. Daha sonra tədqiqatçı açmalarını verdiyi nümunəni – S.Urməvinin ilk melodiyası olan "Novruz" – "Rəməl"in not açımını yerləşdirib.

*Tədqiqatların təcrübi əhəmiyyəti.* S.Urməvinin ixtira etdiyi *"Nüzhə"* alətini mərhum professor, orqanoloq Məcnun Kərimi Z.Səfərovanın "Səfiəddin Urməvi" kitabında verdiyi ətraflı məlumata əsasən bərpa edib. Nüzhə musiqi aləti M.Kərimi tərəfindən məhz Z.Səfərovanın "Səfiəddin Urməvi" kitabında verdiyi ətraflı məlumata, dəqiq ölçülərə əsasən bərpa edilib,

Qədim misiqi alətləri ansamblına daxil edilib. 2010-cu ildə Azərbaycan Bəstəkarlar İttifaqında Z.Səfərovanın “Ölməzlik” və “Dedim, dedilər” kitablarının təqdimat mərasimində ilk dəfə olaraq S.Urməvinin alim tərəfindən açılmış melodiyası müasir dövrdə bərpa edilən Nüzhə musiqi alətində ifa edilmişdi. Bu faktın özü tədqiqatçının monoqrafiyasının təcrübi əhəmiyyətinin bariz göstəricisidir.

*Musiqi irsinin akademik nəşri.* Z.Səfərovanın mənbəşünaslıq sahəsində həyata keçirdiyi ən mühüm, gərəkli layihələrindən biri də Ü.Hacıbəylinin musiqi irsinin nəşridir. O, Ü.Hacıbəylinin musiqi irsinin ilk akademik nəşrini həyata keçirib – “Leyli və Məcnun” operasının Partiturası – I cild, Klaviri – II cild, “Koroğlu” operasının Partiturası – 3 kitabdan ibarət III cild. Yüksək professionallığı, tələbkarlığı, hər bir işə xüsusi məsuliyyətlə yanaşması ilə seçilən Z.Səfərova Ü.Hacıbəylinin musiqi irsinin akademik nəşrinin bütün əziyyətini boynuna götürüb, əsərlərin ilk dəfə tənqidi mətnlərinin hazırlanması işinə rəhbərlik edib, külliyyatın cildlərinə “Ön söz” və elmi şərhlər yazıb. Əsərlərin yaranma və ifa tarixinə, musiqi dilinin, ədəbi-bədii mətn əsasının dərin təhlilinə həsr edilən bu şərhlərdə müəllif nadir arxiv sənədlərindən, məktublardan, tarixi əhəmiyyət kəsb edən xatirələrdən geniş istifadə edib. Nəticədə, hər iki əsərin səhnə həyatının da maraqlı tarixçəsi işıqlandırılıb. Təsadüfi deyil ki, “Leyli və Məcnun” operasının partiturasına yazılan elmi şərhləri əsərin ensiklopediyası da adlandırırlar.

Azərbaycan musiqi irsinin tədqiqi və təbliği ilə bağlı olan mühüm işlərdən biri də XX əsrin parlaq şəxsiyyəti, klassik bəstəkarı Qara Qarayevin elmi-publisistik irsinin nəşridir [7]. Z.Səfərova ilk dəfə olaraq Moskva və Bakının kitabxana və arxivlərindən sənətkarın məqalələrinin, məruzə və çıxışlarının, müsahibə və söhbətlərinin mətnlərini toplayıb, sistemləşdirib, tədqiq və təhlil edib. Alim kitaba yazdığı “Ön söz”də bəstəkarın nəzəri-estetik görüşlərini musiqişünaslığın aktual problemləri müstəvisində araşdırıb, topluya elmi şərhlər verib.

Z.Səfərova “Azərbaycan musiqi tarixi”nin 5 cildinin Azərbaycanda ilk akademik nəşrini həyata keçirib. O, 5 cildliyin layihə rəhbəri, elmi redaktoru, baş redaksiya şurasının sədridir. Alim çoxcildliyin Dədə Qorqud, S.Urməvi, Ə.Marağai, F.Şirvani, M.M.Nəvvab, C.Qaryağdıoğlu və orta əsr musiqi alimləri haqqında (I cild), Ü.Hacıbəyli (II cild), Q.Qarayevin elmi-publisistik irsi (III cild) və digər bəhslərinin müəllifidır. Akademik nəşrdə Azərbaycanın musiqi tarixinin orta əsrlərdən bu günümüzədək olan dövrü mərhələlər üzrə araşdırılıb, müxtəlif dövrlərdə ayrı-ayrı musiqi janrlarının inkişaf təmayülləri izlənilib, həmin tarixi dövrlərdə Azərbaycanın musiqi həyatının özəllikləri qələmə alınıb. Cildlərdə musiqimizin görkəmli nümayəndələri, musiqi xadimləri təcrid edilmiş şəkildə deyil, yaşayıb-yaratdıqları dövrün ictimai-siyasi, mədəni-tarixi hadisələri aynasında təqdim ediliblər.

Önəmlidir ki, 2013-cü ildə Z.Səfərovanın “Azərbaycanın musiqi elmi” monoqrafiyası, 2014-cü ildə isə “Azərbaycan musiqi tarixi”nin I cildi rus dilində nəşr edilib. Bu da Azərbaycan musiqisi, Azərbaycan musiqi tarixi ilə bağlı zəngin biliklərin və informasiyanın daha geniş oxucu auditoriyası tərəfindən mənimsənilməsinə geniş imkanlar açıb.

Z.Səfərovanın Azərbaycanın musiqi mədəniyyətinə, musiqi tarixinə verdiyi qiymətli töhfələrdən biri də Azərbaycan muğamının, folklorunun mahir bilicisi, ustad xanəndə, “ölməz ənənələr daşıyıcısı” Cabbar Qaryağdıoğlu haqqında yazdığı “Şərq musiqisinin peyğəmbəri” monoqrafiyasıdır. O, C.Qaryağdıoğlunun şəxsiyyətini, həyat və yaradıcılığını, Azərbaycan musiqisinə gətirdiyi yenilikləri kitabda Azərbaycan musiqisinin, muğam sənətinin təşəkkülünün geniş tarixi icmalı fonunda tədqiq edib. Monoqrafiyada Z.Səfərova ilk dəfə olaraq C.Qaryağdıoğlunun “Azərbaycan musiqisinin keçmişi ilə bağlı xatirələrim” əlyazmasını araşdırıb oxucuların müzakirəsinə təqdim edib. Eyni zamanda muğam ustadının oxuduğu 50 mahnının not yazıları da kitaba daxil edilib.

Z.Səfərovanın Azərbaycan musiqişünaslığının çağdaş dövrünün aktual mövzu və məsələləri ilə bağlı araşdırmaları alimin 50-dən çox kitabında öz əksini tapıb. “Həmişəyaşar ənənələr” (Elm, 2000, 317 s.), “Сеять разумное, доброе, вечное” (Bakı, 2002, 243 s., rus dilində), “Bəbəklərimiz makamla ağlar” (Ankara, 2004, 198 s., türk dilində), “Uzeyir Hajibeyov and his

outstanding predecessors" (Elm, 2005, 175s., ingilis dilində, 2015-də macar dilində), Muzyka Azerbejdzanska (Varşava, 2013, 64 s., polyak dilində), "Dedim, dedilər..." (Elm, 2012, 272 s.) "Şuşa Azərbaycanın musiqi qalasıdır", "Azərbaycan musiqisi müstəqillik illərində" və s. kimi nəşrlərdə alimin orta əsrlərin musiqi elmi, Dədə Qorqudun musiqi dünyası, Azərbaycan musiqisinin nəzəri və estetik problemlərinə dair fikir və müddəaları, Azərbaycanın tanınmış musiqi xadimlərinin yaradıcı portretləri yer alıb. Tədqiqatçının musiqimizin bu günü və keçmişinə həsr edilən məqalələrində onun müasir musiqiyə, onun gündəmdə olan problemlərinə dair fikir və mülahizələri öz ifadəsini tapır. Z.Səfərovanın müasir Azərbaycan musiqisinə, bəstəkar yaradıcılığına, dövrün aktual mövzularına həsr edilən yazıları onu vətənpərvər bir alim, həmişə zamanla ayaqlaşan, dövrün aktual hadisələrinə dərhal səs verən, onları dəyərləndirən bir vətəndaş kimi səciyyələndirir.

Z.Səfərovanın Azərbaycan musiqisinə həsr edilən müxtəlif mövzulu kitab və məqalələri xarici dillərdə nəşr edilib: Moskvada "Üzeyir Hacıbəyovun musiqi-estetk baxışları" kitabı, Türkiyədə "Bəbəklərimiz makamla ağlar", "Türk dünyasının müzik yıldızı – Üzeyir Hacıbeyli" məqalələr toplusu, "Ü.Hacıbəyov" kitabçası 7 dildə, "Bilik, xeyirxahlıq, əbədilik toxumlarını səpmək" məqalələr toplusu rus dilində, "Üzeyir Hacıbəyov və onun görkəmli sələfləri" – ingilis və macar dillərində, "Muzyka Azerbejdzanska" (Varşava, 2013, 64 s.) polyak dilində). Musiqimizin, mədəni irsimizin dünya miqyasında tanınmasına, yayılmasına böyük ehiyac olan bir dövrdə xarici dillərdə, xarici ölkələrdə çap edilən bu nəşrlərin əhəmiyyəti böyükdür. Alimin məqalələrdən ibarət olan bu kitabları Azərbaycan musiqisini, mədəniyyətini uzaq ölkələrdə təbliğ edir, tanıtdırır – özünün ifadəsi ilə desək, "xeyirxahlıq və əbədilik toxumları səpir".

Vətənini dərin məhəbbətlə sevən, onun mədəniyyətini, zəngin xalq musiqisini, bəstəkarlarımızın yaradıcılığını yüksək dəyərləndirən Z.Səfərova Azərbaycanın musiqi sənətini, milli-mənəvi dəyərlərimizi vətəndən kənarlarda da təbliğ edir. Alim Səmərqənddə keçirilən muğam simpoziumlarında, Parisdə, Tehranda, İstanbulda, Kayseridə baş tutan nüfuzlu beynəlxalq konqreslərdə, Çində təşkil olunan görüşlərdə Azərbaycan musiqisinin tarixi və nəzəri əsaslarına toxunan məruzələrlə çıxış edib.

Hər xalqın musiqi tarixi onun mənəvi dünyasının, milli bədii təfəkkürünün tarixidir. Onun hər mərhələsi, bu mərhələləri təmsil edən hər klassiki – xalqın tarixini, mədəniyyətini öyrənib dərk etmək üçün zəngin xəzinədir. Z.Səfərova əsrlərin qaranlığından bu xəzinəni çıxarıb yenidən xalqın istifadəsinə vermək kimi çox müqəddəs və ağır, məsul bir işi öz boynuna götürüb. Z.Səfərova, eyni zamanda çox xoşbəxt alimdir ki, musiqi nəzəriyyəmizin tarixindəki bu böyük missiyanı həyata keçirmək məhz ona nəsib olub.

## Nəticə / *Conclusion*

Akademik Zemfira Səfərovanın yüksək əxlaqi-mənəvi keyfiyyətləri, vətənpərvərliyi, möhkəm əqidəsi, sabit vətəndaşlıq mövqeyi, prinsipiallığı, elmi yaradıcılığı, sənətə yanaşma prinsipləri ilə sıx vəhdət təşkil edir, onun yaradıcılıq prosesində, elmi-təşkilati fəaliyyətində mühüm rol oynayır. Alimin bu şəxsi xüsusiyyətləri, yüksək elmi səriştəsi, nəzəri təfəkkürü, zəngin təcrübəsi, geniş erudisiyası ilə aşılanmış yaradıcılığı təkcə Azərbaycanın deyil, bir çox xarici ölkələrin də elm aləmində ona nüfuz qazandırıb. Bütün ömrünü doğma xalqının mədəni irsinin, musiqi fikrinin, tarixinin öyrənilməsinə həsr edən Z.Səfərovanın tədqiqatları Azərbaycan musiqişünaslığı və musiqi fikir tarixinin böyük uğurudur.

## Ədəbiyyat / *References*


1. Əsrlərə həsr olunan illər. Bakı: Elm, 2007.
2. Mir Möhsün Nəvvab. Vüzuhül-ərqam. Bakı: Elm, 1989.

3. Səfərova Z. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: Elm, 1998; 2-ci nəşr – Səfərova Z. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: Azərnəşr, 2006.
4. Səfərova Z. Səfiəddin Urməvi. Bakı: Ergün, 1995.
5. Səfərova Z. Üzeyir Hacıbəyov yaradıcılığında nəzəri və estetik problemlər. Bakı: Elm, 1985.
6. Сафарова З. Музыкально-эстетические взгляды Узеира Гаджибекова. – Москва: Советский композитор, 1973.
7. Сафарова З. Научно-публицистическое наследие Кара Караева. Баку: Элм, 1988.


## Научное творчество академика Земфиры Сафаровой в контексте азербайджанского музыковедения


**Улькяр Талыбзаде**
Доктор философии по искусствоведении
Институт архитектуры и искусства НАНА. Азербайджан.
E-mail: ulkar_talibzadeh@yahoo.com



**Резюме.** В статье рассматривается научная деятельность видного музыковеда, академика Земфиры Сафаровой в контексте азербайджанского музыковедения. Говоря о музыковедческой деятельности З.Сафаровой, можно выделить несколько основных направлений – Гаджибековедение, источниковедение, история и теория музыки. В своих книгах и статьях, изданных на разных языках в Азербайджане и многих других странах мира, З.Сафарова исследует музыкальное и научное наследие У.Гаджибейли, существенно обогатив Гаджибековедение. З.Сафарова заложила основы источниковедения в национальном музыковедении, впервые издала труды азербайджанских учёных-музыковедов следуя принципам текстологического исследования первоисточников.

В своей фундаментальной монографии "Музыкальная наука Азербайджана (XIII-XX вв.)" З.Сафарова впервые в Азербайджане исследовала историю развития музыкальной науки от эпохи средневековья (XIII в.) до современности (XX в.). На основе музыкально-теоретических обобщений и научных фактов, полученных в результате анализа уникальных источников, ученый создала историю целого этапа азербайджанского музыкознания, являющегося неотъемлемой частью истории музыки, музыкально-эстетической, философской мысли Ближнего Востока.



**Ключевые слова:** музыковедение Азербайджана, С.Урмеви, А.Марагаи, Ф.Ширвани, М.М.Навваб, У.Гаджибейли, К.Караев